

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 151 (21.052)

*12 avqust 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Binəqədi rayonundakı 115 nömrəli tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yaşıllıqlar salınır.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bu istiqamətdə görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi. Qeyd edildi ki, 115 nömrəli məktəbin binası 1965-ci ildə inşa olunub. Dövlətimizin başçısının tapşırıqlarına əsasən, 5 min kvadratmetr tikinti sahəsi olan məktəbdə yeni dərs ili ərəfəsində əsaslı yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə həyata keçirilib. 47 sinif otağından ibarət 1380 şagird yerlik məktəbdə dərslər, əsasən, iki növbədə keçiriləcək. Məktəbin bütün sinif otaqları, ayrı-ayrı fənn kabinetləri yüksək səviyyədə təmir olunub və lazımi ləvazimatla təchiz edilib.

Prezident İlham Əliyev sinif otaqlarında və fənn kabinetlərində yaradılan şəraitlə tanış oldu.

Məktəbin akt zalı, yeməkxanası, açıq və örtülü idman meydançaları da ən müasir standartlara uyğun şəkildə yenidən qurulub. Təhsil ocağının bir hektarlıq həyətyanı sahəsində abadlıq və quruculuq işləri həyata keçirilib, yaşıllıqlar salınıb. İstilik və işıqlandırma sistemləri də müasir standartlar səviyyəsindədir. Məktəb içməli və texniki su sistemləri ilə təchiz edilibdir.



## B.H.Əsgərovun Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar Hüseynalı oğlu Əsgərov Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 avqust 2014-cü il*

## Naxçıvanda sosial qayğıya ehtiyacı olan vətəndaşlara minik avtomobilləri təqdim olunmuşdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Biz xalq üçün çalışırıq, qururuq, yaradırıq, ölkəmizi gücləndiririk".***

Bu gün Azərbaycanın iqtisadi qüdrətinin getdikcə artması uğurlu sosial siyasətlə də müşahidə olunur. Həyata keçirilən sosial islahatların mərkəzində isə insan amili, ölkə vətəndaşlarının həyat səviyyəsinin yaxşılaşdırılması dayanır. Sosial qayğıya ehtiyacı olan vətəndaşların fərdi mənzillər və minik avtomobilləri ilə təmin olunması da bu istiqamətdə görülən işlərin tərkib hissəsidir.

Avqustun 9-da Naxçıvan şəhərində 10 müharibə iştirakçısına, 7 müharibə iştirakçısına bərabər tutulan şəxsə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 3 nəfərə "NAZ-Lifan-320" markalı 20 ədəd minik avtomobili təqdim edilmişdir.





Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara göstərilən qayğıdan danışmışdır. Qeyd olunmuşdur ki, 2014-cü ilin 7 ayı ərzində 88 nəfərin Əlillərin Bərpa Mərkəzində, sağlamlıq imkanları məhdud 192 uşağın Uşaq Bərpa Mərkəzində müalicəsi təşkil edilmişdir. Bu dövr ərzində sosial müdafiəyə xüsusi ehtiyacı olan 78 şəxs işlə təmin edilmiş, sağlamlıq imkanları məhdud 20 nəfər peşə hazırlığı kurslarına cəlb olunmuşdur. Məhdud fiziki imkanlıların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də ardıcıl tədbirlər görülmüş, müharibə və Çernobıl əlilləri, habelə müharibə əlillərinə bərabər tutulan 40 nəfər minik avtomobili ilə təmin olunmuşdur. Hazırda bu kateqoriyadan olan 2 vətəndaş üçün fərdi yaşayış evinin tikintisi davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını salamlamış, xidmətləri müqabilində avtomobillə təmin olunmaları münasibətilə onları təbrik edərək demişdir: "Ölkəmizdə insan amilinə yüksək qiymət verilir. Müxtəlif sahələrdə xidmət göstərmiş şəxslərə avtomobillərin təqdim olunması da bunun ifadəsidir. Bütün bu tədbirlər inkişaf, sabitlik, dövlət-xalq birliyi və dövlətin insanlara qayğısı olan ölkələrdə həyata keçirilir. Bu gün Azərbaycanda insanlara qayğı həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir".

Ali Məclisin Sədri demişdir: "Yeni avtomobillərlə təmin olunanlar müxtəlif vaxtlarda öz xidməti borclarını layiqincə yerinə yetirmiş insanlardır. Göstərdiyiniz xidmət dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Bu gün sizə yeni xidməti avtomobillər təqdim olunur. Bu da rahatlığınızın təmin olunması ilə yanaşı, həm də yaşayış şəraitinizin yaxşılaşdırılmasına xidmət edəcəkdir".

Ali Məclisin Sədri xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə yeni avtomobillərlə təmin olunanlara təşəkkürünü bildirmiş, avtomobillərin açarlarını təqdim etmişdir.

Yeni avtomobillə təmin olunanlar sosial-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir

Avqustun 11-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tələbə adını qazanan bütün məzunları, onların valideynlərini və müəllimləri təbrik edərək demişdir: "Bu gün sizinlə görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin bir fikrini diqqətə çatdırmaq istəyirəm: ***"O ölkələr inkişaf edir ki, orada təhsilə, elmə, intellektual məhsulların yaradılmasına böyük investisiyalar qoyulur".*** Həqiqətən də, ölkələrin inkişafı onların iqtisadi qüdrəti ilə deyil, elmin və təhsilin səviyyəsi ilə ölçülür. Güclü iqtisadiyyatın qurulmasında ali, orta ixtisas və peşə təhsilinin rolu heç vaxt indiki qədər aktual olmayıb. Bu, ondan irəli gəlir ki, hər bir cəmiyyət inkişaf etmək, irəli getmək istəyir. Güclü kadr potensialı olmadan isə bunu təmin etmək mümkün deyil. Azərbaycanın inkişafının gənc milli kadrların yetişməsindən, təhsilin səviyyəsindən asılı olduğunu görən ümummilli liderimiz ötən əsrin 70-ci illərindən bu sahəyə diqqəti artırmış, həmin tarixdən ulu öndərin adı ilə bağlı olan təhsil strategiyası xalqımızın intellektual potensialının yüksəlişinə öz töhfəsini vermişdir. Ölkəmiz müstəqillik qazandıqdan sonra da ümummilli liderimiz təhsili milli dövlət quruculuğunun vacib şərti kimi əsas vəzifələr sırasına çəkmiş, Azərbaycan təhsili milli məqsəd və mənafelər əsasında qurularaq beynəlxalq təhsil sisteminə inteqrasiya olunmuşdur".

Qeyd olunmuşdur ki, ümummilli liderimizin təhsillə bağlı müəyyənləşdirdiyi vəzifələr bu gün Azərbaycanda uğurla yerinə yetirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında təhsil sistemi dinamik inkişaf yoluna çıxıb. Son 10 ildə muxtar respublikada 56 min 926 şagird yerlik 142 orta məktəb binası tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumtəhsil məktəblərinə 3409 kompüter dəsti verilmiş, hər 12 şagird bir kompüterlə təmin olunmuşdur. Təhsil müəssisələrindəki kompüterlərin 84 faizi internetə qoşulmuş, 600-ə yaxın elektron lövhə quraşdırılmışdır.

*Ardı 2-ci səhifədə*





Bütün bunların nəticəsidir ki, təhsildə keyfiyyət göstəricisi ilbəil artır. Ali məktəblərə qəbulun təhlilindən görürük ki, yüksək bal toplayanların sayı bu il də artıb. Əgər 2013-cü ildə tələbə adını qazananların 312-si 500-dən yuxarı bal toplamışdırsa, 2014-cü ildə 347 abituriyent 500-700 intervalında yüksək nəticə göstərmişdir.

Müdriklərin "Gənc nəslin təhsillənməsi onun mənsub olduğu xalqın rifahının və ölkənin çiçəklənməsinin rəhnidir" fikrini diqqətə çatdıran Ali Məclisin Sədri demişdir: "Gənclər sosial-iqtisadi inkişafı təmin edən, cəmiyyəti irəliyə doğru hərəkətə gətirən qüvvədir. Sevindirici haldır ki, Azərbaycan gəncliyi də ölkəmizin tərəqqisinə və inkişafına öz töhfəsini verməkdədir".

Ali Məclisin Sədri gənclərə müraciət edərək demişdir: "Yeni cəmiyyət quruculuğunda sizin üzərinizə mühüm vəzifələr düşür. Daim bu vəzifələri düşünməli, onun icrasına çalışmalısınız. Vəzifə, birinci növbədə, yaxşı təhsil almaqdan ibarətdir. Yaxşı təhsil almadan intellektual səviyyəni yüksəltmək, kamil mütəxəssis və əsl vətəndaş kimi yetişmək mümkün deyil. Öz üzərinizdə daim işləməli, mütaliə etməlisiniz. İnformasiya texnologiyalarının sirlərinə dərindən bələd olmalı, müasir elmi-texniki yenilikləri öyrənməlisiniz. Bu gün gəncliyin təhsildə əsas missiyası istənilən sahə üzrə mütəxəssis kimi yetişmək, Vətən üçün, xalq üçün faydalı olmaqdır. Çalışmaq lazımdır ki, verilən təhsil yalnız qazanılmış biliklə məhdudlaşmasın. Gənclər öz dünyagörüşlərini inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlidirlər. Müasir həyat insanlardan daha çox bilik və təcrübə tələb edir. Ona görə də siz təhsil almaqla yanaşı, həm də seçdiyiniz sahə üzrə yaxşı mütəxəssis kimi yetişməli, özünüzü cəmiyyət üçün hazırlamalısınız. Hansı sahədə işləməyinizdən və harada yaşamağınızdan asılı olmayaraq, daim doğma Azərbaycanımıza sədaqətli olun!"

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarətdir"*** fikrini xatırlatmış, gənclərə Azərbaycanımızı ümummilli lider Heydər Əliyev kimi sevməyi, Azərbaycan naminə çalışmağı və fədakarlıq göstərməyi arzulamışdır.



Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev tədbirdə çıxış edərək demişdir ki, bu gün muxtar respublikamızda təhsilə diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, onların yüksək maddi-texniki baza və ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı bu qayğının bariz nümunəsidir. Hazırda Naxçıvan şəhərində 9 nömrəli, Şərur rayonunda Püsyan, Dizə, Kürkənd, Axura kənd tam orta və Diyadin kənd ümumi orta, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Qahab kənd tam orta, Naxışnərgiz kənd ümumi orta, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli, Aşağı Əylis, Culfa rayonunda Bənəniyar, Şahbuz rayonunda Şahbuz şəhər 2 nömrəli, Nursu, Kəngərli rayonunda Qarabağlar kənd 1 nömrəli tam orta məktəbləri, eyni zamanda Sədərək və Kəngərli Rayon Təhsil şöbələri üçün inzibati binalar, Kəngərli rayonunda şahmat məktəbi və Şərur rayonunda Texniki-Peşə və Sürücülük Məktəbi üçün binalarda tikinti və ya əsaslı yenidənqurma işləri aparılır. Bununla yanaşı, Şərur rayonunda Cəlilkənd, Babək rayonunda Qoşadizə, Güznüt, Ordubad rayonunda internat və Şahbuz rayonunda Gömür kənd tam orta məktəb binaları əsaslı təmir olunur.

2013-2014-cü tədris ilində ali məktəblərə qəbul göstəriciləri haqqında məlumat verən Piri Nağıyev bildirmişdir ki, bu il məktəbi bitirən 3993 nəfərdən 3115-i ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. Əvvəlki illərin məzunları ilə birlikdə sənəd verənlərin ümumi sayı 5664 nəfər olmuşdur. Məzunlar arasında xüsusitəyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 174 nəfər təşkil etmişdir. Muxtar respublikamızda həm orta ixtisas təhsili müəssisələrinə, həm də hərbi təhsil sahəsinə maraq xeyli artmışdır. 2014-2015-ci tədris ili üçün ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə muxtar respublika üzrə sənəd verən 1760 nəfərdən 909-u cari ildə IX sinfi bitirənlər, Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün sənəd verən 1020 nəfərdən isə 990-ı muxtar respublika ümumtəhsil məktəblərinin şagirdləridir.

Qeyd olunmuşdur ki, bu il ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1725-i tələbə adını qazanmışdır. Muxtar respublikada ali təhsil müəssisələri üçün yaradılan şəraitin nəticəsidir ki, yüksək bal toplayan abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrində oxumağa daha çox üstünlük vermişlər. Belə ki, yüksək bal toplayan abituriyentlərdən 156 nəfəri Naxçıvan Dövlət Universitetinə qəbul olunmuşdur. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, məktəbi yüksək qiymətlərlə bitirən məzunlardan 14-ü "Qızıl", 13-ü isə "Gümüş" medala layiq görülmüşlər.

Valideynlər adından çıxış edən Azərbaycan Respublikasının əməkdar müəllimi Səidə Səfərova qeyd etmişdir ki, muxtar respublikanın hərtərəfli inkişafından təhsilə də böyük pay düşmüş, şagird və tələbələrin təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Təkcə şəhər və rayon mərkəzlərində deyil, eləcə də ucqar dağ kəndlərində tikilən məktəblər gənclərin rahat və yüksək səviyyədə təhsil almasını təmin edir. Bu şəraitin nəticəsi göz qabağındadır. Hər il yüksək bal toplayanların sayı artır. Övladının 620 bal toplayaraq Bakı Dövlət Universitetinin "kompüter elmləri" ixtisasına qəbul olunduğunu bildirən Səidə Səfərova yaradılan şəraitə görə valideynlər adından minnətdarlıq etmişdir.

Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin məzunu Gültac Zeynalzadə çıxışında bildirmişdir ki, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, ən müasir informasiya texnologiyaları ilə təmin edilməsi şagirdlərin daha yaxşı oxumalarına şərait yaradır. Muxtar respublikada təhsil sahəsinin inkişafı, tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlər gənclərin parlaq gələcəyindən xəbər verir. Gültac Zeynalzadə göstərilən qayğıya görə tələbə-gənclər adından minnətdarlıq etmiş, savadlı, vətənpərvər gənclər kimi yetişəcəklərinə və göstərilən etimadı doğruldacaqlarına söz vermişdir.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Naxçıvan 2003-2013: hədəflər, inkişaf və nəticələr" kitabı və pul mükafatı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Dəmiryolçular payız-qış mövsümünə hazırlıqla bağlı məsələləri müzakirə ediblər

***Avqustun 11-də "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla bağlı tədbir keçirilib. Tədbiri cəmiyyətin sədri Mahir Əliyev açıb.***



"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin rəisi Mərdan Hacıyev çıxış edərək bildirib ki, cəmiyyətin idarə strukturlarında təsərrüfatın 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlığına dair 1 avqust 2014-cü il tarixdə müvafiq qərargah yaradılıb, ötən mövsümdəki işlər təhlil edilərək aşkar olunan nöqsanlar nəzərə alınmaqla bir sıra tədbirlər həyata keçirilib. Belə ki, xidməti ərazidə qatarların təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə baş və stansiya yollarının vəziyyəti yoxlanılıb, kəskin ehtiyac duyulan sahələrdə 23 ədəd yarımyararlı ağac şpal, 240 ədəd təzə ağac şpal və 123 ədəd dəmir-beton şpal dəyişdirilərək 50 metr yararsız rels yenisi ilə əvəz edilib. Relslərdə olan qüsurların vaxtında aşkar edilməsi, yoldəyişdirici qurğuların və qaynaq calaqlarının yoxlanılması məqsədilə yollarda müvafiq ölçmələr aparılır.

Stansiyalarda hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün 141 ədəd rele, 13 ədəd radio-rabitə bloku, 125 metr magistral kabel dəyişdirilib. Ordubad-Validağ sahəsində yararsız vəziyyətdə olan 311 ədəd müxtəliftipli izolyator, 2 ədəd 10 kilovoltluq ayırıcı, 130 metr kabel, 350 metr alçaqgərginlikli elektrik ötürücü xətti dəyişdirilib, obyektlərə 11 ədəd elektron sayğac quraşdırılıb. Culfa, Naxçıvan, Qarğalıq və Qıvraq dartı yarımstansiyalarının dam örtükləri sinkləşdirilmiş şifer materialı ilə örtülüb.

Cəmiyyətin Yük və Sərnişin Daşımaları İdarəsinin rəis əvəzi Mübariz Allahverdiyev qeyd edib ki, Culfa lokomotiv deposunda payız-qış mövsümündə istismar olunacaq 5 ədəd elektrovozun və 5 ədəd manevr-magistral teplovozun hərəkət və dartı hissələri müayinə olunaraq onların cari və depo təmirləri diqqətdə saxlanılıb. Bildirilib ki, cari ildə elektrovozların normal və fasilsiz işini təmin etmək məqsədilə 24 ədəd təkər cütündən 14 ədədi dəyişdirilib, 10 ədədi isə ehtiyatda saxlanılır. 2014-cü ilin ilk 7 ayında 76 ədəd müxtəliftipli vaqonda cari və ya depo təmiri işləri aparılıb. Lokomotivlərin və istilik sistemləri ilə təchiz edilmiş sərnişin vaqonlarının payız-qış mövsümünə hazırlığı ilə əlaqədar tələb olunan ehtiyat hissələri və 10,7 ton sürtgü yağı tədarük edilib. Vaqonların qış mövsümündə qızdırılması üçün 53,3 ton daş kömür ehtiyatı yaradılıb, əlavə olaraq mövsüm ərəfəsində 20 ton daş kömürün alınıb gətirilməsi təmin ediləcəkdir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təhlükəsizlik İdarəsinin rəisi Ramazan Şıxəliyev və cəmiyyətin Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsinin rəis əvəzi İntizam Mustafayev çıxış edərək bildiriblər ki, texniki, inzibati və yardımçı binaların dam örtüklərinə, qapı və pəncərələrinə baxış keçirilib, nasos stansiyalarının xətləri, qurğu və avadanlıqları yoxlanılaraq çatışmazlıqlar aradan qaldırılıb. Təhlükəsizlik komandalarının gözətçi məntəqələrində təmir işləri aparılıb, geyim və yataq əşyalarının təmizliyi təmin edilib. Dəmiryol təsərrüfatında çalışan bütün aidiyyəti işçilər xüsusi geyim, ayaqqabı və fərdi mühafizə vasitələri ilə təchiz olunublar. Sahələrdə istifadə edilən və standartlara cavab verməyən bütün işçi alətləri yenilənib.

Qeyd olunub ki, son illər əsaslı təmir olunmuş və yenidən qurulmuş sərnişin vağzalı və inzibati binalarda 9 ədəd fərdi qazanxana quraşdırılıb. Təmir sexlərində və digər strukturlarda isə 6 ədəd "Kombi" markalı qızdırıcıdan istifadə olunur. İstismar edilən bütün qazanxana və qızdırıcılara texniki baxış keçirilərək onların saz vəziyyətdə olması təmin edilib.

Sonra görüləcək işlərlə bağlı müzakirələr aparılıb.

Tədbirə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Mahir Əliyev yekun vurub.

**Səbuhi HƏSƏNOV**





# Gəncliyə qayğı dövlətin və xalqın gələcəyinə xidmət edir

***1998-ci il avqustun 12-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində gənclərlə iş sahəsində keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada “Gənclər Günü” kimi qeyd olunması qərara alınmışdır. Həmin tarixdən etibarən Beynəlxalq Gənclər Günü Azərbaycanda da qeyd olunur.***

Ölkəmizdə gənclər siyasətinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Ulu öndər sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlamış, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin olunmasını vacib məsələ elan etmişdir. 1994-cü ildə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılmış, 1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin I Forumu keçirilmişdir. Bu forumda gənclər təşkilatlarının və gənclərimizin qarşısında mühüm vəzifələr qoyulmuş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində təsirli tədbirlərin görülməsi aid dövlət orqanlarının əsas vəzifəsi kimi müəyyənləşdirilmişdir.

Ümummilli liderimiz bu sahənin hüquqi bazasının yaradılması, gənclərlə işin daha da təkmilləşdirilməsi məsələlərini də diqqət mərkəzində saxlamış, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaratmışdır. 1999-cu ildə “Dövlət gənclər siyasəti haqqında” Fərman imzalanmış, 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, müxtəlif illərdə “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” Fərman, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında” Sərəncam, habelə “Gənc ailə” proqramı qəbul edilmiş, bu sahədə əsas vəzifə və məqsədlər müəyyənləşdirilmişdir. Xalqımızın işıqlı gələcəyi naminə gənclərə böyük ümidlər bəsləyən, onların hərtərəfli yetişməsini ən ümdə amal hesab edən dahi şəxsiyyət Heydər Əliyev demişdir: ***“Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq”.***

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının sərəncamları ilə “Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)”nın, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)”nın və “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”nın təsdiq edilməsi, 2007-ci ilin ölkəmizdə “Gənclər ili” elan olunması, Azərbaycan gənclərinin növbəti forumlarının keçirilməsi bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir.

Bu gün ölkəmizdə təhsil sahəsində aparılan islahatlar gənclər siyasətinin ən vacib istiqamətlərindən birini təşkil edir. Azərbaycanın müxtəlif bölgələrində müasir standartlara cavab verən məktəb binaları tikilib istifadəyə verilir, orta və ali təhsil ocaqları müasir avadanlıqlarla təchiz edilir. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na uyğun olaraq, hər il xarici ölkələrdə təhsil almağa göndərilən gənclərin sayı artırılır. Elmi müəssisələrin, məktəblərin kompüterləşdirilməsi, gənc vətəndaşlarımızın virtual dünyaya çıxışının təmin edilməsi, onların informasiya texnologiyaları ilə işləmək vərdişlərinə yiyələnmələri üçün atılan məqsədyönlü addımlar Azərbaycanda insan kapitalının inkişafına xidmət edir.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da vacib şərtdir. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir. Bölgələrdə olimpiya idman komplekslərinin tikilməsi, idmanın kütləviliyinin təmin olunması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiada və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Ölkəmizin paytaxtı Bakı şəhərində Gənclər Mərkəzinin, regionlarda isə “Gənclər evləri”nin inşası da gənclərin asudə vaxtının səmərəli təşkili, onların potensialının üzə çıxarılması ilə yanaşı, gənclərə göstərilən dövlət qayğısını özündə təcəssüm etdirir. Prezident İlham Əliyev gənclərə göstərilən qayğının ölkənin gələcəyinə xidmət etdiyini bildirərək demişdir: ***“Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir. Bugünkü gənclər bir neçə ildən sonra Azərbaycanın bütün idarəetmə sistemində əsas rol oynayacaqlar. Ona görə gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək lazımdır ki, onlar işləsinlər, gözəl təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyət üçün hazır olsunlar”.***

Dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır. Muxtar respublikamızda gənclik mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, orta məktəb binaları və digər obyektlər gənclərin istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərin cəmiyyət həyatında mühüm rol oynadığını bildirərək demişdir: ***“Hər bir ölkənin gələcəyi cəmiyyətin ictimai-siyasi həyatında aparıcı rol oynayan gəncliyin əlindədir. Gənc nəslin sağlam ruhda böyüməsi, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması çox vacibdir”.*** Bu gün muxtar respublikamızda gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanları ilə “Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionumuzda gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu il ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi bu sahəyə olan diqqətin daha bir ifadəsinə çevrilmişdir. Bu sosial obyekt gənclərin müxtəlif layihələr vasitəsilə vahid bir məkanda toplanması və asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir. Gənclər Mərkəzində ötən dövr ərzində gənclər tərəfindən irəli sürülmüş layihələrin icrası gənclərin yaradıcılıq, intellektual imkanlarının inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

*Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir. Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sadaqət ruhunda böyüyür.*

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Cəlil Məmmədquluzadə Azərbaycanda ilk müasirtipli məktəb muzeyini yaratmışdır

*Dünyanın bir çox ölkələrində ilk muzeylərin yaranma tarixi XVI-XIX əsrlərə təsadüf edir. Maraqlıdır ki, bu muzeylər, ilk olaraq, təhsil müəssisələrinin nəzdində yaradılmışdır: XIV əsrin ortalarında yaradılmış Paduya (İtaliya) Universitetinin ilk təbabət bağı, 1594-cü ildə Paduya və Leyden (Niderland) universitetlərinin nəzdində təşkil edilmiş anatomiya teatrları, 1683-cü ildə isə Oksford Universitetinin nəzdində Aşimolean muzeyi.*

Azərbaycanda isə ilk muzey XIX əsrin sonlarında indiki Babək rayonunun Nehrəm kənd məktəbində görkəmli yazıçı və dramaturq Cəlil Məmmədquluzadə tərəfindən yaradılmışdır. C.Məmmədquluzadədən sonra ictimai fikri muzey probleminə yönəldənlərdən biri görkəmli maarifçi, ictimai xadim və publisist Həsən bəy Zərdabi olmuşdur. O, 1899 və 1900-cü illərdə “ Kaspi ” qəzetində dərc olunmuş məqalələrində muzey mövzusuna toxunmuş, bədii-estetik zövqün formalaşmasında muzeylərin əhəmiyyətindən və rolundan bəhs etmişdir.

Ümumiyyətlə, C.Məmmədquluzadənin həyatına, ictimai fəaliyyətinə nəzər saldıqda görürük ki, görkəmli ədib geriliyə, savadsızlığa, dini xurafata qarşı mübarizə aparmış, həmişə xalqı milli oyanışa səsləmiş, yenivetmə və gənclərdə milli məfkurənin formalaşmasına çalışmışdır. Bu cür yüksək milli-mənəvi missiyanı o, təkcə özünün ədəbi-bədii yaradıcılığı vasitəsilə deyil, həm də geniş ictimai fəaliyyəti ilə həyata keçirmişdir.

Məlum olduğu kimi, C.Məmmədquluzadə ömrünün 7 ilini (1890-1897-ci illər) Nehrəm kəndində müəllimlik etməklə keçirmişdir.

Burada işlədiyi illərdə C.Məmmədquluzadə yalnız dərs deməklə kifayətlənməmiş, həm də şagirdlərə Vətəni, xalqı sevməyi, onun tarixinə hörmətlə yanaşmağı və dərindən öyrənib mənimsəməyi aşılamağa çalışmışdır.

Bu məqsədlə C.Məmmədquluzadə 1896-cı ildə müəllim işlədiyi Nehrəm kənd məktəbində muzey yaratmağa təşəbbüs göstərmiş və buna icazə verilməsi üçün Xalq Məktəbləri İdarəsinin müdiriyyətinə yazılı müraciət etmişdir. Bir müddət keçdikdən sonra müsbət cavab alan Mirzə Cəlil müəllim həmkarlarının da köməyindən istifadə etməklə Azərbaycanda ilk dəfə olaraq məktəbdə muzey yaratmağa nail olmuşdur. Muzeydə Azərbaycanın, o cümlədən Naxçıvan diyarının tarixinə dair maddi-mədəniyyət nümunələri toplanmışdır.



Naxçıvanda muzey işinin tarixinə dair məlumatlar əldə etmək məqsədilə 1999-cu ilin mayında Naxçıvan şəhərində yaşamış, filologiya elmləri namizədi, vaxtilə Naxçıvan Dövlət Tarix Muzeyində işləmiş mərhum Lətif Hüseynzadə ilə həmsöhbət olduq. Onun verdiyi məlumata görə, C.Məmmədquluzadənin Nehrəm kənd məktəbində təşkil etdiyi muzeydə, əsasən, saxsıdan hazırlanmış küpələr, kuzələr, sənəklər, misdən hazırlanmış məişət əşyaları, mis pul sikkələri, xalça və xalçaçılıq məmulatları, toxuma əl işləri və sair bu kimi dəyərli əşyalar toplanmışdır. Əşyaların toplanması işinə sonrakı vaxtlarda müəllimlərlə yanaşı, şagirdlər və onların valideynləri də cəlb edilmiş, muzey get-gedə zənginləşdirilmişdir.

XIX əsrin sonlarında Nehrəm kənd məktəbində muzey yaratmaq kimi nəcib təşəbbüsünə görə sonralar Xalq Məktəbləri İdarəsi müdiriyyətinin təşəkkürünü alan C.Məmmədquluzadə Azərbaycanda ilk dəfə məktəbdə müasirtipli muzey yaratmaqla muzey işinin əsasını qoymuşdur.

Görkəmli yazıçının bu möhtəşəm işi ” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 6 mart 2007-ci il tarixli Sərəncamında lazımınca qiymətləndirilmişdir. Sərəncamda qeyd olunur: “XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər, öz növbəsində, muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasirtipli muzeylərin yaradılmasına başlanmışdır. İlk belə muzeylərdən biri görkəmli maarifpərvər yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında təşkil olunmuşdur”.

C.Məmmədquluzadə tərəfindən muzeyin yaradılması o dövr üçün böyük hadisə idi. Həmin muzey xüsusilə Nehrəm kənd əhalisinin Azərbaycan xalqının tarixi keçmişi haqqında məlumatlar əldə etməsinə xidmət etmiş, digər tərəfdən isə Azərbaycanda və onun ayrılmaz parçası olan qədim Naxçıvan diyarında XIX əsrin sonu, XX əsrin əvvəllərində muzey əhəmiyyətli əşyaların toplanmasına, kolleksiyaçı nəslin yaranmasına öz təsirini göstərmişdir.

C.Məmmədquluzadə XIX əsrin sonlarında Azərbaycanda ilk müasirtipli muzeyin yaradılmasına nail olmaqla XX əsrin sonlarında özünün xatirəsinə muzeylər təşkil edilməsinə mənəvi haqq qazanmış oldu.

C.Məmmədquluzadə irsinin toplanması, qorunması, öyrənilməsi və təbliği işini uzun illər indiki Naxçıvan Dövlət Tarix Muzeyi həyata keçirmiş, 1967-ci ildən fəaliyyətə başlayan C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi də sonradan bu işə qoşulmuşdur. Hazırda Bakı və Naxçıvan şəhərlərində ədibin ev-muzeyləri, vaxtilə müəllim işlədiyi Şərur rayonundakı Cəlilkənddə və Babək rayonunun Nehrəm kəndində 1989 və 1991-ci illərdə yaradılmış xatirə muzeyləri görkəmli yazıçının həyat və fəaliyyətini, ədəbi irsini təbliğ edirlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1999-cu ilin oktyabr ayında, Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd olunduğu günlərdə Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyinin açılış mərasimində çıxış edərkən demişdir: ***“Bilirsiniz, mən xoşbəxt günlərimdən birini yaşayıram, nə üçün? Çünki arzuma çatmışam. Çünki Mirzə Cəlilin ev-muzeyini yaratmaq istəmişəm, bunu da yaratmışam. Azərbaycanın mötəbər adamları ilə bir yerdəyəm və bunu bir yerdə açırıq. Allah Mirzə Cəlilə rəhmət eləsin! Mirzə Cəlilin irsi, şəxsiyyəti, xidmətləri Azərbaycan xalqının qəlbində əsrlərlə yaşayacaqdır”.***

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı-dramaturq C.Məmmədquluzadənin əziz xatirəsinə ehtiram əlaməti olaraq muzeylərimiz onun ədəbi irsini və ictimai fəaliyyətini dərindən öyrənib təbliğ etməklə özlərinin mənəvi borclarını yerinə yetirməyə səy göstərirlər.*

**Nizami RƏHİMOV**
***Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru***

# “Araz-Naxçıvan” Premyer-Liqada ilk qələbəsini qazandı

*Topaz Premyer-Liqasında debüt edən “Araz-Naxçıvan” futbol komandası çempionatın ilk turunda “Neftçi” futbol komandasını qəbul etdi. 13 illik fasilədən sonra ilk dəfə yüksək dəstədə mübarizəyə qoşulan muxtar respublika təmsilçisi üçün bu görüş böyük əhəmiyyət daşıyırdı: birincisi, çempion kimi meydana çıxıb qələbələrinin ardını gətirmək, digər tərəfdən isə doğma arenada məğlubedilməzlik seriyasını davam etdirmək.*



### *Kapitana yaraşan oyun*

“Neftçi” futbol komandası Avropa Liqasında uğurlu çıxışını Premyer-Liqanın ilk turunda da davam etdirmək niyyətində idi. Odur ki, ilk turda “Araz-Naxçıvan”la qarşılaşmaya Bakı təmsilçisi rahat şəkildə gəlmişdi. Qırmızı-ağlar hər zaman olduğu kimi, budəfəki görüşə də ciddi hazırlaşmışdılar. “Araz-Naxçıvan”ın heyətində yeganə itki Elnur Abdulov idi ki, onun da növbəti turda meydana çıxacağı artıq dəqiqləşib. “Araz-Naxçıvan” futbol komandasının baş məşqçisi Əsgər Abdullayev qapını yeni qapıçımız Kamal Bayramova həvalə etmişdi. Eyni zamanda kapitanlıq sarğısı da onun qolunda idi. Müdafiə xəttində Ruslan-Azər-Emin-Ruslan kvartetinə orta xətdə Budaq-Ramal-Eşqin triosu köməklik edirdi. Ötən mövsüm olduğu kimi, bu dəfə də hücum xəttindəki üçlü rəqibin müdafiəsini yarmaqla qol axtarışında olmalı idi. Tərlan Xəlilovla yanaşı, Bəxtiyar Soltanov hücumun sivri ucunda olan David Canıyevə köməklik edirdi.

Yetirmələrinə daha çox rəqibi əks-hücumlarda yaxalamaq tapşırığını verən baş məşqçi Əsgər Abdullayev həmçinin oyunun taleyinin məhz orta xətdən asılı olduğunu matçdan öncə açıqlamasında bildirmişdi. Eyni zamanda sürətli cinah oyununa üstünlük verən baş məşqçi qol axtarışında üstünlüyü bir qədər sol və sağ yarımmüdafiəçilərinin öhdəsinə buraxmışdı.

### *İki fərqli hissə*

Matç gözlənildiyindən də sürətli başladı. Artıq ilk 10 dəqiqədə “Neftçi” futbolçuları qapımız önündə iki təhlükəli vəziyyət yaratsalar da, qapıçı Kamal Bayramov sayıqlığı itirmədi. Buna cavab olaraq 17-ci dəqiqədə David Canıyev müdafiəçilərin səhvindən yararlanmağa yaxın oldu. Lakin ötən mövsüm komandamızın şərəfini qoruyan, hazırda isə “Neftçi” futbol klubunun formasını geyinən Emil Balayev qola imkan vermədi. Bir qədər sonra oyunun ən real qol imkanını komandamız boşa verdi. Künc zərbəsindən sonra cərimə meydançasında yaranan qarışıqlıqda rəqib qapıçı topu son anda qapı xəttindən uzaqlaşdırmağı bacardı. Ağ-qaraların isə buna cavabı dirəkdən qayıdan zərbə ilə yekunlaşdı. Oyunda sürəti bir qədər artıran muxtar respublika təmsilçisi eyni cinahdan iki təhlükəli vəziyyəti boşa verdi. Bəxtiyarın ardınca David qapıçını keçə bilmədi. İlk hissənin son 5 dəqiqəsində isə topa nəzarət edən “Neftçi” futbol komandası daha çox uzaqdan zərbələrlə qapımıza yol tapmağa çalışdı. Nicat Qurbanov və Mirhüseyn Seyidovun qüvvətli zərbələri qeyri-dəqiq alınınca ilk hissədə tablodakı sıfırlar dəyişməz olaraq qaldı.

İkinci hissə başlamazdan öncə Əsgər Abdullayev Eşqin Quliyevi Elmin Çobanovla əvəzlədi və hücum xəttində sürəti bir qədər artırdı ki, bu da öz bəhrəsini 52-ci dəqiqədə verdi. Belə ki, sağ cinahdan başlanan hücumu David Canıyev məntiqi sonluqla yekunlaşdırdı – 1:0. Bu qol eyni zamanda yüksək liqada muxtar respublika təmsilçisinin 13 ildən sonra vurduğu ilk qol kimi tarixə düşdü. Vurulan qol sanki “Neftçi”ni yuxudan oyatdı. Ardıcıl hücumlar təşkil edən Bakı təmsilçisi qapımız önündə bir neçə təhlükəli vəziyyət yaratdı. Xüsusilə cərimə zərbələrini ustalıqla yerinə yetirən rəqib futbolçular qapıçımızın da səyləri nəticəsində toru silkələməkdə aciz qaldılar. Buna cavab olaraq “Araz-Naxçıvan”ın əks-hücumları 81-ci dəqiqədə qolla nəticələndi. Belə ki, rəqib müdafiəçinin bir qədər ləng hərəkətindən istifadə edən Elmin Çobanov qapıçını da geridə qoyaraq rəqibi ikinci dəfə mərkəzə dəvət etdi – 2:0. Artıq məğlubiyyətlə barışan “Neftçi” təsəlli qolu vurmağa çalışdığı halda David Canıyev oyunda ikinci qolunu rəsmiləşdirdi. Mərkəzdə Ramal Hüseynovdan ideal ötürmə alan David hücumun yönünü sol cinaha dəyişməklə rəqib müdafiəçilərdə çaşqınlıq yaratdı. E.Çobanovun asmasını ram edən hücumçumuz mükəmməl zərbə ilə qapının uzaq doqquzluğunu dəqiq nişan aldı və ötən mövsüm olduğu kimi, bu dəfə də meydandakı ilk oyununu iki qolla başa vurdu – 3:0.



Bununla, “Araz-Naxçıvan” Topaz Premyer-Liqasının ilk matçını qələbə ilə başa vurdu və aktivinə 3 xal yazdırmağa müvəffəq oldu. Komandamız növbəti görüşünü avqustun 17-də səfərdə “Qəbələ” futbol komandasına qarşı keçirəcək.

### *Fikirlər...*

*Əsgər ABDULLAYEV (“Araz-Naxçıvan” komandasının baş məşqçisi):* “İki fərqli hissə oynadıq. Futbolçular ikinci hissədə tapşırıqları daha düzgün yerinə yetirdilər. İlk hissədə cinahlardan istifadə edə bilmədik. Elmin Çobanovun oyuna daxil olmasından sonra isə vəziyyət dəyişdi. Cinahlar güclü olanda komandaya oyununu qurmaq daha asan olur. Cinahsız komanda qanadsız quş kimidir. Bütün azarkeşlərimizi təbrik edirəm. Futbolçular ikinci hissədə tapşırıqları tam yerinə yetirdilər. Azarkeş 12-ci oyunçudur. Çatışmazlıqlarımız hələ var. Komanda, əsasən, yerli futbolçulardan təşkil olunub. Çalışırıq ki, əlimizdən gələni edək, azarkeşlərimizi sevindirək. Güclülər dəstəsinə rəng qatmaq istəyirik.

*Nazim Əliyev (“Neftçi” futbol komandasının məşqçisi):* “Təəssüf ki, məğlubiyyətlə üzləşdik. Bugünkü oyunda gənc futbolçularımızı yoxlamaq istəyirdik. Klub tərəfindən onlara şans verildi. Avroliqada, demək olar ki, oynamaq şansları olmur. 3-4 nəfəri çıxmaqla, demək olar ki, heç biri etimadı doğrultmadı. “Araz-Naxçıvan” futbol komandasını qələbə münasibətilə təbrik edirəm”.

✍ **Ceyhun MƏMMƏDOV**

# Naxçıvan şəhərinin sakinləri “Sosial şəbəkələrdən nə məqsədlə istifadə edirsiniz?” sualına belə cavab verdilər…

*Ən vacibli ehtiyaclarımız içərisində yer alan informasiya texnologiyaları modern insan həyatının ayrılmaz hissəsinə çevrilib. İnternetin kəşfi isə xüsusilə böyük hadisədir. İnternet vasitəsilə dünyanın hər tərəfi ilə informasiya alış-verişi etmək mümkündür. Sosial-iqtisadi sahələrlə yanaşı, elm, təhsil, səhiyyə sahələrində də internet əhəmiyyətli yer tutmaqdadır. İnternet insanları bir-birinə yaxınlaşdırmaqdadır.*

Əlbəttə, fiziki olaraq bir izolyasiya olduğu doğrudur, ancaq insanlar internet vasitəsilə fikirlərini bir-birlərinə daha yaxşı çatdırır, fikri baxımdan daha çox mövzunu müzakirəyə cəlb edə bilirlər. İnternet ictimailəşmək baxımından da əhəmiyyətli rola malikdir, çünki bu mühitdə kimsə əvvəlcə nə geydiyinizə, necə göründüyünüzə baxaraq sizi qiymətləndirmir. İnternet fikirlərin ön plana çıxdığı bir mühitdir. Xüsusilə son zamanlarda təhsil sahəsində internetdən geniş şəkildə istifadə olunur. İnternet məlumatlanmaq baxımından böyük bazaya sahibdir. Dünyada internetdən istifadə edənlərin sayı getdikcə artmaqdadır. İnternet vasitəsilə insanlar elektron kitabxanalardan istifadə edir, elektron formada alış-veriş və sair həyata keçirirlər. Bu isə insanlara vaxt qazandırmaqla bərabər, rahat və ucuz başa gəlir. Bundan əlavə, internet vasitəsilə dünyanın müxtəlif kitabxanaları, ticarət obyektləri, mağazaları ilə əlaqə saxlamaq mümkündür.

Naxçıvan Muxtar Respublikasında da informasiya texnologiyalarının inkişafı ilə bağlı genişmiqyaslı işlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində və Gənclər Mərkəzində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidməti yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İKT ilə bağlı demişdir: *“Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi işinin və informasiya mübadiləsinin çevik forması olan sosial şəbəkələrin getdikcə genişlənməsi gənclər qarşısında əlavə fəaliyyət sahəsi açmışdır. Bizim üçün xoşdur ki, muxtar respublika gəncləri bu sahəyə nüfuz etməyi bacarmış, sosial şəbəkələrdə fəallığı xeyli artırmışlar. Gənclərimiz sosial şəbəkələrdən, əsasən, təbliğat vasitəsi kimi istifadəyə üstünlük verir, öz təcrübə və biliyini səmərəli informasiya mübadiləsinə yönəldir, internet resurslarında ölkəmiz, eləcə də muxtar respublikamız haqqında obyektiv və zəngin məlumat bazası yaratmağa çalışırlar”.*

Dövrümüzdə internet deyəndə 100 milyondan çox internet ünvanı, 30 milyard internet səhifəsi, 1,2 milyard istifadəçi və trilyonlarla dollar ticarət başa düşülməlidir. Sosial şəbəkələrdə təbliğat, informasiya alış-verişi son dövrlərdə daha da populyarlaşıb. Bu məsələ ilə bağlı Naxçıvan şəhərində sorğu keçirdik. İnternetin, sosial şəbəkələrin insanların həyatının ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə “Sosial şəbəkələrdən nə məqsədlə istifadə edirsiniz?” sualına Naxçıvan şəhərinin sakinləri belə cavab verdilər…

18-40 yaş arası şəhər sakinlərinin cavabları belə idi: məlumat tələbatımız var – xəbər saytlarını oxumaq üçün; iş üçün; işimiz üçün; yeni insanlarla tanış olmaq üçün; vaxt keçirmək üçün; darıxdığım üçün; ən maraqlı və intensiv xəbərləri burdan oxuya bildiyim üçün; ölkədəki ictimai-siyasi vəziyyətə vətəndaş prizmasından baxışı buradan daha asan yolla öyrənirəm; dostlarımla söhbət edirəm; fikirlər yazıb, fikirlərə rəylər bildirməklə öz fikirlərimi açıqlayıram və sair.

Verilən cavabların əksəriyyəti bu cür idi.

Ancaq sosial şəbəkələrə özünü daha yaxşı ifadə etmək məqsədilə baş vuranlar da az deyil.

40-60 yaş arası insanların isə cavabları, əsasən, belə idi: fikir mübadiləsi aparmaq və informasiya almaq üçün; xəbərləri oxumaq üçün; bu şəbəkələrə olan marağım üçün…

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında hər yaşdan internet istifadəçiləri vardır. Və bunların əksəriyyəti sosial şəbəkələrdə qeydiyyatdadır. Bu şəbəkələr arasında ilk yeri feysbuk (facebook), adnaklasnik (odnaklassniki), tviter (twitter) tutur.

Muxtar respublikamızda internetdən istifadə üçün geniş imkanlar yaradılmışdır. Bu imkanlardan səmərəli istifadə etməklə tariximizi, ədəbiyyatımızı, milli dəyərlərimizi dünya səviyyəsində təbliğ etməliyik. Xüsusilə ermənilərin Vətənimizdə törətdiyi vəhşilikləri, soydaşlarımıza qarşı törədilən soyqırımları internet vasitəsilə dünya ictimaiyyətinin diqqətinə çatdırmağa çalışmalıyıq.

Son dövrlərdə internet üzərindən aparılan təbliğatlar geniş vüsət alıb. Bu, böyük şansdır; günümüzü lazımsız internet səhifələrində keçirmək əvəzinə Vətənimizi, milli dəyərlərimizi internet üzərindən təbliğ etmək daha yararlı olar. Gənclərimiz bu sahədə böyük işlər görməkdədirlər. Bununla belə, bizim İKT sahəsində daha fəal və bu sahəyə xüsusi maraq göstərən savadlı gənclərə ehtiyacımız var.

✍ **Nərgiz İSMAYILOVA**

## 2014-cü ilin avqust ayında şəhər və rayon məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1 | Sədərək rayonu | Heydərabad qəsəbə mərkəzi | 19.08.2014 | $10^{00}$ |
| 2 | Kəngərli rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 20.08.2014 | $10^{00}$ |
| 3 | Şahbuz rayonu | Şahbuz şəhər “Araz” kinoteatrının binası | 21.08.2014 | $10^{00}$ |
| 4 | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 22.08.2014 | $10^{00}$ |
| 5 | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 26.08.2014 | $10^{00}$ |
| 6 | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 27.08.2014 | $10^{00}$ |
| 7 | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 28.08.2014 | $10^{00}$ |
| 8 | Naxçıvan şəhəri | Naxçıvan “Gənclik” Mərkəzi | 29.08.2014 | $10^{00}$ |

***İtmişdir***

Ələkbərov Gəncəli Zahid oğlunun adına verilmiş B-387574 nömrəli attestat itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kollektivi iş yoldaşları Emil Bayramova, atası **AYDININ** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Duzdağ Fizioterapiya Mərkəzinin kollektivi iş yoldaşları Abdulla Tahirliyə yaxın qohumu **SABİR TAHİROVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin işçilərindən Süleyman Cəfərov, Zəminə və Sahibə Quliyevalar Fərhad Bayramova, qardaşı **AYDININ** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 680**